# Azərbaycan Prezidenti Ermənistan hakimiyyətini faşistlərlə əməkdaşlıq edənləri "qəhrəman"a çevirməkdə kəskin ittiham etdi

**Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başlanan vaxtdan indiyədək iki ölkənin informasiya cəbhəsində təbliğat mübarizəsi aparılır. Prezident İlham Əliyevin sözləri ilə desək, ölkədə oyuncaq, xalqazidd, satqın Xalq Cəbhəsi rejiminin hakimiyyətdə olduğu müstəqilliyin ilk illərində erməni tərəfinin bu məsələdə fəallığı daha çox nəzərə çarpırdı. O dövrün xarici mətbuatında, eləcə də Ermənistanın yerli nəşrlərində ermənilər Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair ərazi iddialarını yalan pərdəsi altında əsaslandırmağa çalışır, həm də bu zaman ölkəmizin tarixi, sosial-iqtisadi inkişafı haqqında faktları açıq-aşkar, bilərəkdən saxtalaşdırırdılar. O vaxtkı Azərbaycan rəhbərliyinin qətiyyətsizliyindən yararlanan erməni tərəfi yalanlarını beynəlxalq aləmə inandırmaq məqsədinə də müəyyən dərəcədə nail ola bilirdilər. Lakin ulu öndər Heydər Əliyevin hakimiyyətə tarixi qayıdışından sonra bu sahədə vəziyyət tədricən yaxşılaşdı, informasiya müharibəsində təbliğat xeyrimizə dəyişməyə başladı.**



Prezident İlham Əliyev məcburi köçkünlər üçün salınan "Qobu Park-2" yaşayış kompleksinin açılışı mərasimində erməni fitnəkarlığı barədə deyib: "Əvvəllər - münaqişə ilə bağlı məlumat olmayan dövrdə, əlbəttə, bütün yalanları yayırdılar. Hər bir ölkədə onların diaspor təşkilatları var idi, bizim isə heç nəyimiz yox idi. Ona görə münaqişə ilə bağlı təhrif edilmiş faktları onlar ortaya qoymuşlar və bir çox hallarda nail olmuşlar ki, onlara inansınlar. Bu gün biz informasiya dövründə, internet dövründə yaşayırıq. Həqiqət var və bunu mən çatdırmışam. Hər kəs bilir ki, aranlı-dağlı Qarabağ əzəli Azərbaycan torpağıdır, beynəlxalq hüquq tərəfindən tanınan Azərbaycan torpağıdır və Qarabağ Azərbaycandır və nida işarəsi, vəssalam".

Yeri gəlmişkən, Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən istər respublika daxilində keçirilən müxtəlif səviyyəli görüşlərdə, istərsə də xarici səfərlərdə Azərbaycanın haqq işinin dünyaya çatdırılması, ermənilərin işğalçılıq siyasəti, xalqımıza qarşı soyqırımları barədə xarici ölkələrin ictimaiyyətinə ətraflı məlumatların verilməsi istiqamətində ardıcıl və məqsədyönlü siyasət həyata keçirilir.

Dövlətimizin başçısının son vaxtlar informasiya müharibəsini xüsusilə diqqət mərkəzində saxlaması heç də təsadüfi deyil. Çünki erməni tərəfi, o cümlədən işğalçı ölkənin baş naziri N.Paşinyan Azərbaycana qarşı əsassız ittihamlardan əl çəkmir, qərəzli, saxta məlumatlar yayırlar. Məqsəd isə respublikamızın imicinə zərbə vurmaq, torpaqlarımızın işğalına haqq qazandırmaq və Azərbaycanı geridə qalmış ölkə kimi təqdim etməkdir. Təbii ki, dövlətimizin başçısı İlham Əliyev mötəbər beynəlxalq tədbirlərdə ölkəmizə qarşı aparılan bütün bu riyakar təbliğatın qarşısında Azərbaycan həqiqətlərini ortaya qoyur, Azərbaycanı haqqın tərəfində olan müasir, güclü dövlət kimi tanıdır.

Oktyabrın 11-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxış edən Prezident İlham Əliyevin nitqində də bunun bir daha şahidi olduq. Dövlətimizin başçısı belə bir mötəbər kürsüdən faşizm üzərində ümumi Qələbəmizə Azərbaycan layiqli töhfə verdiyini, Azərbaycanın 600 mindən çox oğlu və qızının Böyük Vətən müharibəsi cəbhələrində döyüşdüyünü, onların yarısının ümumi Qələbəmiz uğrunda canlarından keçdiyini diqqətə çatdırdı. Xatırlatdı ki, müharibə illərində göstərdikləri igidliyə görə Azərbaycanın 130-dan çox nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif olunub. Azərbaycan bütün ölkəni yanacaqla təmin edib. Cəbhə üçün çox zəruri olan neftin 70 faizdən çoxu, benzinin 80 faizi, motor yağlarının 90 faizi Azərbaycanın payına düşüb. Bunlar olmasaydı, sovet ordusu düşmənə qalib gələ bilməzdi...

Prezident İlham Əliyev daha sonra deyib: "Biz dövlət başçıları faşistlərin qəhrəman kimi qələmə verilməsinin əleyhinə dəfələrlə çıxış etmişik. Təəssüf ki, MDB məkanında, xüsusən Ermənistanda belə hallar baş verir. Orada əvvəlki hakimiyyət İrəvanın mərkəzində faşist cəlladı və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə etirazını bildirib. 2019-cu ilin mayında Rusiya Xarici İşlər Nazirliyi "Nasizmin qəhrəmanlıq kimi qələmə verilməsi, neonasizmin yayılması və irqçiliyin, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və onlarla bağlı dözümsüzlüyün müasir formalarının yayılmasına şərait yaradan praktikanın digər növləri ilə bağlı vəziyyət haqqında" məruzə təqdim edib. Həmin məruzədə deyilir: "Ermənistanın keçmiş hakim respublikaçılar partiyası millətçi təmayüllü, Üçüncü Reyx ilə əməkdaşlıq etməsi haqqında məlumat olan, birmənalı siyasi mövqeyi olmayan Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atıb". Bu, Rusiya Xarici İşlər Nazirliyinin mövqeyidir".

Bəli, Daşnaksütunun üzvü olan Qaregin Ter-Arutyunyan (Qaregin Njde) erməni silahlı dəstələrinə qoşularaq, I Balkan müharibəsində Osmanlı imperiyasına qarşı döyüşlərdə iştirak edib. O, 1919-cu ilin sentyabrında, daşnak hökuməti tərəfindən Zəngəzura göndərilib, bu ərazilərin azərbaycanlılardan təmizlənməsində quldurluq fəaliyyətini davam etdirib. Njdenin rəhbərlik etdiyi silahlı dəstələr, burada yaşayan azərbaycanlı əhalinin kütləvi qətli ilə məşğul olub, onun bilavasitə rəhbərliyi və göstərişi ilə azərbaycanlılar yaşayan kəndlər yandırılıb, əhalisi qətlə yetirilib və öz evlərindən qovulub.

Njdenin dəstələri 1920-ci ildə Azərbaycan Demokratik Respublikasının ordusu ilə döyüşlərdə də iştirak ediblər. Həmin il dekabr ayının 25-də Njde və silahdaşları tərəfindən Zəngəzurda "Dağlıq Erməni Respublikası"nın yaradılması elan olunub. Qaregin Ter-Arutyunyan isə özünü yaratdığı oyuncaq respublikanın "ali baş komandan"ı elan edib. Lakin o, burada çox davam gətirməyib, başkəsən tərəfdarları ilə İrana qaçıb.

Qaregin Njde 1937-ci ildə Daşnaksütunun sıralarından ayrılaraq faşist Almaniyası ilə əlaqələr yaradıb, Rozenberqlə görüşüb, onları Türkiyəyə hücum etməyə çağıraraq, köməyini təklif edib. Beləliklə, 1942-ci il dekabrın 15-də almanların yaratdığı "Erməni milli şurası"nın 7 üzvündən biri olub. Njdenin başçılıq etdiyi erməni hərbi birləşmələri Krım yarımadasının işğalında və Qafqazdakı döyüşlərdə iştirak ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında Qaregin Njdenin həmin dövrdəki fəaliyyətindən danışarkən, diqqəti Rusiyanın müdafiə naziri Sergey Şoyqunun sədrliyi ilə bu nazirliyin baş redaksiya heyəti tərəfindən nəşr edilən 12 cildlik "1941-1945-ci illərin Böyük Vətən müharibəsi" ensiklopediyasının "Böyük Vətən müharibəsi illərində gizli müharibə, kəşfiyyat və əks-kəşfiyyat" adlı VI cildində dərc edilən "Müharibənin son dövründə hərbi əks-kəşfiyyatın fəaliyyəti" adlı məqaləyə yönəldib: "Əks-kəşfiyyatçılar 114-cü Dromedar oberqrupu barəsində agentura işi çərçivəsində daşnak ordusunun keçmiş generalı, almanların yanında Njde ləqəbi ilə xidmət etmiş mühacir Ter-Arutyunyanı aşkar edib və həbsə alıblar. Böyük Vətən müharibəsi illərində o, Bolqarıstan ərazisində milliyyətcə erməni olan 30-dan çox agent cəlb edib, onların təxribat hazırlığında və pozucu fəaliyyət üçün Qızıl Ordunun arxa cəbhəsinə atılmasında iştirak edib. SMERŞ qrupunun əməkdaşları olan 17 təxribatçı saxlanılıb, qalanları barədə axtarış elan edilib.

Njde həm də Avropanın yəhudi əhalisinə qarşı Holokostda iştirak edib. 1942-ci ildə o, Sovet İttifaqına qarşı döyüşən erməni legionu təşkil edib. Yeri gəlmişkən, Njdenin əsas şüarı belə idi: "Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur". Burada şərhə ehtiyac yoxdur. Njde həbs olundu və Vladimir həbsxanasında ömrünü başa vurdu. 2016-cı ildə Ermənistan paytaxtının mərkəzində bu satqın cəllada hündürlüyü 6 metrə yaxın olan heykəl qoyulub. Təəssüf ki, Ermənistanın yeni hakimiyyəti bu heykəli götürməyib. Hesab edirəm ki, MDB məkanında faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinə yer yoxdur".

Dövlətimizin başçısı Azərbaycana qarşı informasiya müharibəsində Ermənistanı, bax, belə dəlil-sübutlarla susdurur. Ölkəmiz haqqında yalan məlumatları, uydurma faktları, saxta xəbərləri əsaslı şəkildə təkzib etməklə həqiqətlərimizi bütün dünyaya çatdırır.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*